**UDC:** 070; 49
**LBC:** 66.0; 66.1; 76.01
**MJ №** 268
10.33864/2617-751X.2025.v8.i2.67-85

# Discussion of Contemporary Threats Caused by Global Problems in the Framework of COP29

**Aytekin Zeynalova***

**Abstract.** The COP was created from the ground up to address climate change for the benefit of humanity. Naturally, a unified view of the problem is important here. That is, the participating states should evaluate climate change in the same sense. As a second step, they should develop a joint action plan as a result of the assessment. They have to solve their finances. In the third step, they should implement concrete programs to solve the problem objectively and fairly. So, in fact, COP is a multi-faceted and step-by-step process in terms of implementation. Azerbaijan's hosting of COP29 should be evaluated as a successful implementation of President Ilham Aliyev's strategy to further raise the country's international image and implement policies in line with sustainable development goals. The article analyzes the fact that the COP29 conference played the role of an important platform for Azerbaijan to strengthen this position, that Baku is not only an exporter of oil and gas, but also an active partner in promoting "green energy" and solving global climate problems. This is an indication that Azerbaijan will play an important role in global climate diplomacy and regional cooperation in the future. The article also highlights the adoption of an important document related to the Caspian Sea, the Caspian Declaration. With COP29, Azerbaijan showed the world that it is entering a new stage of activity. In this sense, COP29 is just the beginning. It is the beginning and a new stage on the way of becoming a stronger global actor of the Republic of Azerbaijan. This means that Azerbaijan has the chance

* Doctor of Philosophy in Political Science,
Baku State University, Associate Professor of the Department of International Journalism and Information Policy; Baku Azerbaijan
E-mail: phd.aytekinzeynalova@gmail.com
https://orcid.org/0000-0002-9737-1072

**To cite this article:** Zeynalova, A. [2025]. Discussion of Contemporary Threats Caused by Global Problems in the Framework of COP29. *“Metafizika” journal, 8*(2), pp.67-85.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i2.67-85

***Article history:***
*Received: 16.01.2025*
*Accepted: 15.04.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit
https://creativecommons.org/licenses/by-nc/4.0/.

to become the country where the world will gather to solve another very important global problem in the next 5 years. Azerbaijan gave a very important message in the context of COP. In other words, it confirmed the right of an independent state, which resolved the most difficult conflict on a regional scale with justice and law, to organize the COP event, which is of global importance. The article used the President's website, political experts' interviews with TV channels and news websites, and Azerbaijan's internet resources.

**Keywords:** COP29, Azerbaijan, Climate, Caspian Sea Declaration, Global, Kuala Lumpur, ICESCO, UN

**УДК:** 070; 49
**ББК:** 66.0; 66.1; 76.01
**MJ №** 268
10.33864/2617-751X.2025.v8.i2.67-85

# Обсуждение Современных Угроз, Вызванных Глобальными Проблемами, в Рамках COP29

**Айтекин Зейналова***

**Абстракт.** COP (Конференция Сторон) изначально был создан с целью решения проблемы изменения климата на благо человечества. Очевидно, что единый подход к этой проблеме является крайне важным. То есть государства-участники должны одинаково оценивать проблему изменения климата. На втором этапе на основе этой оценки необходимо разработать общий план действий и обеспечить его финансирование. На третьем этапе объективно и справедливо реализуются конкретные программы для решения проблемы. Таким образом, фактически COP представляет собой многоаспектный и поэтапный процесс. Проведение COP29 в Азербайджане следует рассматривать как успешную реализацию стратегии Президента Ильхама Алиева по повышению международного имиджа страны и осуществлению политики в соответствии с целями устойчивого развития. В статье анализируется конференция COP29 как важная платформа для укрепления международной позиции Азербайджана. Также рассматривается роль Баку не только как экспортёра нефти и газа, но и как активного партнёра в продвижении “зелёной энергии” и решении глобальных климатических проблем. Это подчёркивает, что Азербайджан в будущем будет играть важную роль как в глобальной климатической дипломатии, так и в региональном сотрудничестве. Кроме того, в статье освещается принятие

* Кандидат политических наук,
Бакинский Государственный Университет, Доцент кафедры Международная журналистика и информационная политика; Баку, Азербайджан
E-mail: phd.aytekinzeynalova@gmail.com
https://orcid.org/0000-0002-9737-1072

**Цитировать статью:** Зейналова, А. [2025]. Обсуждение Современных Угроз, Вызванных Глобальными Проблемами, в Рамках COP29. *Журнал «Metafizika», 8*(2), с.67-85.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i2.67-85

***История статьи:***
*Статья поступила в редакцию: 16.01.2025*
*Отправлена на доработку: 19.02.2025*
*Принята для печати: 15.04.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

важного документа, связанного с Каспийским морем – Каспийской Декларации. Азербайджан продемонстрировал миру на COP29, что переходит на новый этап своей деятельности. В этом смысле COP29 – это только начало. Это старт и новая ступень на пути становления Азербайджана как более сильного глобального актора. Это также означает, что в ближайшие пять лет Азербайджан сохраняет шанс стать страной, где мировое сообщество соберётся для решения других важных глобальных проблем. Азербайджан в контексте COP направил важное послание, подтверждающее право независимого государства, разрешившего самый сложный региональный конфликт справедливо и законно, на проведение такого значимого мероприятия. В статье использованы материалы с официального сайта Президента, интервью политических экспертов для телеканалов и новостных порталов, а также азербайджанские интернет-ресурсы.

**Ключевые слова:** COP29, Азербайджан, климат, Каспийская Декларация, глобальный, Куала-Лумпур, ICESCO, ООН

**UOT:** 070; 49
**KBT:** 66.0; 66.1; 76.01
**MJ №** 268
10.33864/2617-751X.2025.v8.i2.67-85

# COP29 Çərçivəsində Qlobal Problemlərin Yaratdığı Müasir Təhdidlərin Müzakirəsi

**Aytəkin Zeynalova***

**Abstrakt.** COP təməldən iqlim dəyişikliyini bəşəriyyətin xeyrinə həll etmək məqsədi ilə yaradılmışdır. Təbii olaraq, burada problemə vahid baxış önəmlidir. Yəni iştirakçı dövlətlər iqlim dəyişikliyini eyni anlamda qiymətləndirməlidirlər. İkinci addım kimi qiymətləndirmənin nəticəsi olaraq ortaq tədbirlər planı hazırlamalıdırlar. Maliyyəsini həll etməlidirlər. Üçüncü addımda isə obyektiv və ədalətli olaraq problemi həll etməyin konkret proqramlarını həyata keçirməlidirlər. Deməli, faktiki olaraq COP həm çoxaspektli, həm də reallaşma baxımından mərhələli prosesdir. Azərbaycanın COP29-a ev sahibliyi, Prezident İlham Əliyevin ölkənin beynəlxalq imicini daha da yüksəltmək və dayanıqlı inkişaf məqsədlərinə uyğun siyasət həyata keçirmək strategiyasının müvəffəqiyyətli icrası kimi qiymətləndirilməlidir. Məqalədə COP29 konfransı, Azərbaycanın bu mövqeyi möhkəmləndirməsi üçün mühüm platforma rolunu oynaması, Bakının, yalnız neft və qaz ixracatçısı deyil, həm də "yaşıl enerji"nin təşviqi və qlobal iqlim problemlərinin həllində fəal tərəfdaş olması təhlil edilir. Bu, Azərbaycanın gələcəkdə də həm qlobal iqlim diplomatiyasında, həm də regional əməkdaşlıqda mühüm rol oynayacağının göstəricisidir. Həmçinin məqalədə Xəzər dənizi ilə bağlı mühüm sənədin qəbulu, Xəzər Bəyannaməsi işıqalndırılır. Azərbaycan COP29-la dünyaya göstərdi ki, yeni fəaliyyət mərhələsinə qədəm qoyur. Bu anlamda COP29 sadəcə bir başlanğıcdır. Azərbaycan Respublikasının daha güclü qlobal aktor olmaq yolunda başlanğıc və yeni mərhələdir. Bu o deməkdir ki, Azərbaycan yaxın 5 ildə başqa bir çox

* siyasi elmlər üzrə fəlsəfə doktoru,
Bakı Dövlət Universiteti, Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının dosenti; Bakı, Azərbaycan
E-mail: phd.aytekinzeynalova@gmail.com
https://orcid.org/0000-0002-9737-1072

**Məqaləyə istinad:** Zeynalova, A. [2025] COP29 Çərçivəsində Qlobal Problemlərin Yaratdığı Müasir Təhdidlərin Müzakirəsi. *"Metafizika" jurnalı, 8*(2), səh.67-85.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i2.67-85

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 16.01.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 19.02.2025*
*Çapa qəbul edilmişdir: 15.04.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

mühüm qlobal problemin həlli ilə bağlı dünyanın yığışacağı ölkə olmaq şansını saxlayır. Azərbaycan COP kontekstində çox mühüm bir mesaj vermiş oldu. Yəni regional miqyasda ən çətin münaqişəni ədalət və hüquqla həll edən bir müstəqil dövlətin qlobal əhəmiyyəti olan COP tədbirini təşkil etmək haqqını təsdiqlədi. Məqalədə Prezidentin internet saytından, siyasi ekspertlərin telekanallara və xəbər saytlarına verdiyi müsahibələrdən, Azərbaycanın internet resurslarından istifadə olunub.

**Açar sözlər:** COP29, Azərbaycan, İqlim, Xəzər dənizi Bəyənnamə, Qlobal, Kuala Lumpur, ICESCO, BMT

## 1.Giriş

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri Konfransları dünya liderlərinin, siyasətçilərinin beynəlxalq iqlim fəaliyyətlərini müzakirə və inkişaf etdirmək üçün birləşdikləri əsas tədbirlərdir. İlk COP konfransı 1995-ci ildə Almaniyanın Berlin şəhərində keçirilmişdir, bununla bağlı (COP1) maraqlı faktlar da var. Belə ki, o dövrdə ekoloji tədbirləri iqtisadi inkişaf üçün maneə hesab edən mövqelər mövcud idi. Konfransa ev sahibliyi edən Almaniyanın kansleri Helmut Kohl isə açılışda iqlim dəyişmələri və təsirləri barəsində danışaraq onun yalnız ekoloji deyil, həm də iqtisadi və sosial problemlərə də səbəb ola biləcəyini vurğulamış və ekoloji problemlərin həllinin iqtisadi inkiş76.01af üçün faydalı olduğunu bildirmişdi. Başqa bir maraqlı fakt isə COP1 zamanı dünya iqlim siyasətində ABŞ və Aİ arasındakı fərqlərin ortaya çıxması idi. ABŞ iqlim dəyişmələri ilə mübarizədə daha yumşaq, Avropa İttifaqı isə daha sərt və məcburi tədbirlərin tərəfdarı idi. O zamandan bu konfranslar illik olaraq dünya ölkələrinin nümayəndələrini bir araya gətirir və iqlim dəyişmələri ilə mübarizə strategiyaları, müvafiq hədəfləri və tədbirləri müzakirə edir. COP dünya iqlim dəyişmələrinə qarşı mübarizədə əsaslı bir platforma kimi fəaliyyət göstərir və onunla əlaqəli qlobal siyasətlərin formalaşdırılmasında əhəmiyyətli rol oynayır [Zeynalova, 2024].

Bakıda keçirilən Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası COP29 günlərində təşkil edilən tədbirlərdə bütün dünya üçün olduqca vacib, önəmli məsələlərdən, qlobal problemlərdən danışıldı, müzakirələr aparıldı, birlikdə çıxış yolları axtarıldı.

Prezident İlham Əliyev COP29-un sədri kimi Azərbaycanın inkişaf etmiş və inkişaf edən ölkələr, Qlobal Cənub və Qlobal Şimal arasında ümumi anlaşmaya nail olmaq üçün əlindən gələni edəcəyini bildirib. Bu məsələdə ölkəmizin 120 ölkənin yekdil qərarı ilə dörd il ərzində, BMT-dən sonra ikinci beynəlxalq qurum olan Qoşulmama Hərəkatına uğurla sədrlik etməsini, Azərbaycanın təxminən 60 ölkəni birləşdirən İslam Əməkdaşlıq Təşkilatının fəal üzvü olmasını nümunə kimi göstərib. Onun sözlərinə görə, Azərbaycan çoxtərəfliliyin tərəfdarıdır. Azərbaycan Prezidenti ölkəmizin Yaşıl gündəliyi haqqında da danışıb. Bildirib ki, bərpaolunan enerjidə texniki potensialımız quruda 135 giqavat və dənizdə isə 157 giqavat təşkil edir: "*Biz 2030-cu ilə qədər təxminən altı giqavatlıq günəş, külək və hidroenerji stansiyalarının tikilməsini planlaşdırırıq. Lakin bu, tam planlarımızın hamısı deyil, 10 giqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb. Biz, həmçinin ixrac bazarlarına diqqət yetiririk və Xəzər dənizindən başlayaraq Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsini nəzərdə tutan digər mühüm enerji təhlükəsizliyi layihəsinin həyata*

*keçirilməsi üçün tərəfdaşlarımızla fəal çalışırıq. Bu, bizə Avropaya yaşıl enerjini ixrac etmək imkanı verəcək və bu kabelin texniki potensialı dörd giqavatdır. Yeri gəlmişkən, texniki-əsaslandırma işləri bu yaxınlarda bitəcək. Lakin yenə də bu, yalnız başlanğıcdır*" [Prezident.az. 2024a].

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu Sessiyası COP29 çərçivəsində Azərbaycanın bərpaolunan enerji sahəsindəki növbəti strateji addımı təqdim edildi. Beynəlxalq Bərpaolunan Enerji Agentliyinin pavilyonunda baş tutan tədbirdə Azərbaycanın Hidrogen üzrə Milli Strateji Baxış sənədi böyük maraqla qarşılandı. Sənəddə bütün əsas istiqamətlər, o cümlədən ətraf mühit, nəqliyyatda və neft-kimya sənayesində, həmçinin dekarbonizasiyası çətin olan sahələrdə (sement, polad) istifadəsi kimi məsələlər nəzərə alınmış və iqlim dəyişmələrinə qarşı mübarizə sahəsində hazırlanmış sənədlərlə, 3-cü Milli Səviyyədə Müəyyən edilmiş Töhfələr sənədi ilə uyğunluq təşkil edir. Digər tərəfdən, Azərbaycanın iqlim dəyişmələrinə qarşı mübarizə istiqamətində konkret addımlarını bir daha nümayiş etdirir. Hidrogen enerjisindən istifadənin genişləndirilməsi, həmçinin bu sahədə beynəlxalq sənədlər və öhdəliklərə uyğunluq təmin edib, dayanıqlı inkişaf hədəflərinə töhfə verməyi qarşıya məqsəd qoyur. Azərbaycanın hidrogen üzrə strategiyası ölkəmizi yalnız regional enerji lideri kimi deyil, həm də qlobal "yaşıl enerji" hərəkatının əsas iştirakçılarından birinə çevirmək niyyətindədir. COP29 çərçivəsində təqdim edilən bu sənəd ölkənin hidrogen texnologiyalarına investisiya etməklə bərpaolunan enerji mənbələrinin istifadəsini artırmaq və ən əsası, karbon emissiyalarını azaltmaq istiqamətində ciddi irəliləyişlər əldə edəcəyini göstərir. [Abdalov, 2024]

Qeyd edilən təşəbbüslər, Azərbaycanın beynəlxalq səviyyədə təmiz enerji sahəsində liderliyə iddialı olduğunu sübut edir. Hidrogen enerjisi Azərbaycanın "yaşıl gələcək" strategiyasının parlaq nümunəsi kimi, ölkənin iqtisadi inkişafını və ekoloji davamlılığını təmin edəcək. Azərbaycan yalnız enerji ixracatçısı deyil, həm də dayanıqlı enerji mənbələrinin təşviqçisi kimi yeni bir dövrə qədəm qoyur. Hidrogen enerjisi isə bu dövrün ən mühüm simvollarından birinə çevrilir.

## 2.COP29 çərçivəsində ikitərəfli görüşlər

Prezident Ilham Əliyev 2024-cü il noyabr ayının 17-də ABŞ nümayəndələr palatasının üzvü Avqust Pflügerin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdü. Dövlətimizin başçısı COP29-un uğurla keçdiyini deyərək vurğuladı ki, baxmayaraq ki, Paris razılaşmasının altıncı bəndi üzrə 10 ildən artıqdır danışıqlar aparılmışdır. COP29-un ilk günündə bununla əlaqədar ciddi irəliləyiş əldə edilib. Prezident İlham Əliyev qeyd etdi ki, COP29 maliyyə mövzusuna həsr edilib və burada yeni iqlim maliyyə hədəfinin müəyyən

olunması gözlənilir. Beynəlxalq ictimaiyyət də bunu gözləyir. Azərbaycan Prezidenti beynəlxalq maliyyə və bank strukturları tərəfindən iqlim maliyyəsi ilə bağlı COP29-da verilən açıqlamaları da bu istiqamətdə ümidverici addım kimi qiymətləndirdi. Qonaqlar ilk növbədə Azərbaycanın COP29-a ev sahibliyi etməsi münasibətilə təbriklərini çatdırdılar. Görüşdə Azərbaycanla ABŞ arasında əməkdaşlıq və ölkəmizin yaşıl keçid strategiyası məsələləri ətrafında fikir mübadiləsi aparıldı. Azərbaycanın müstəqilliyinin bərpasından sonra ABŞ-nin ölkəmizə dəstəyi xatırlandı. Enerji strategiyamızın inkişafında ABŞ-ın dəstəyi qeyd olundu. Avqust Pflüger Nümayəndələr Palatasının sədri Mayk Consonun adından nümayəndə heyəti ilə görüşə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Ölkəmizə səfərdən məmnunluq hissi keçirdiklərini deyən qonaq Azərbaycan ABŞ əməkdaşlığının inkişafına töhfə verməyə hazır olduğunu vurğuladı. Dövlətimizin başçısı son 30 ildə ölkələrimiz arasında müxtəlif sahələrdə uğurlu və qarşılıqlı faydalı əməkdaşlığı qeyd etdi. Prezident İlham Əliyev 1994-cü ildə imzalanan Əsrin müqaviləsinə toxundu. O zaman ABŞ hökumətinin bu layihəyə dəstəyini xatırladı və bu müqavilənin ABŞ və onun müttəfiqlərinin enerji təhlükəsizliyinin təmin olunması işinə töhfə verdiyini vurğuladı, bu dövr ərzində energetika sahəsində əsaslı əməkdaşlığın möhkəmləndiyini dedi. Dövlətimizin başçısı Azərbaycanın yaşıl enerji strategiyası haqqında danışaraq, ölkəmizin beynəlxalq tərəfdaşlarla birlikdə bərpa olunan enerjinin istehsalı potensialını artırdığını və 2027-ci ilədək enerji istehsalının 30 faizinin yaşıl enerjinin payına düşəcəyini dedi. Prezident İlham Əliyev Azərbaycanın bərpa olunan enerji potensialı əsasında Qara dənizin dibi ilə çəkilməsi nəzərdə tutulan elektrik enerji kabeli layihəsinə toxundu. Bu xüsusda Azərbaycanın region ölkələri, Gürcüstan, Rumıniya və Macarıstanla əməkdaşlığını qeyd etdi. Həmçinin, Mərkəzi Asiya ölkələri ilə Xəzər dənizi vasitəsilə yaşıl enerji sahəsində əməkdaşlığı və COP29 zamanı Azərbaycan, Özbəkistan və Qazaxıstan arasında yaşıl enerjinin inkişafı və transmissiyası haqqında imzalanmış sənədi vurğuladı. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan region ölkələri ilə birlikdə Xəzər və Qara dəniz hövzəsini birləşdirən yaşıl enerji dəhlizini formalaşdırır. Prezident İlham Əliyev Azərbaycanın Xəzər dənizində böyük həcmdə bərpa olunan külək enerjisi potensialının olduğunu vurğuladı. Hidroenerji resurslarının da inkişaf etdirildiyini və bunun da böyük enerji istehsal həcmlərinə çatacağını qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanın yaxın dövr ərzində dörd giqavat gücündə bərpa olunan enerjinin Avropa İttifaqı bazarına ixrac etmək imkanına malik olacağını bildirdi və Avropa İttifaqı bazarının enerji tələbatının artmaqda olduğunu dedi. Söhbət zamanı bərpa olunan enerji sahəsində ABŞ arasında əməkdaşlıq üçün böyük perspektivlərin olduğu qeyd edildi. Prezident İlham Əliyev Azərbaycanın

regional sülh gündəliyinə sadiq olduğunu, onu dəstəklədiyini vurğuladı, sülh müqaviləsinin təşəbbüskarının Azərbaycan olduğunu xatırladı. Ölkəmizin 30 il ərzində Ermənistanın işğalına və təcavüzünə məruz qaldığını, hazırda Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini təmin etdiyini deyən dövlətimizin başçısı bu münaqişənin Azərbaycan üçün artıq keçmişdə qaldığını qeyd etdi. Azərbaycan Prezidenti Ermənistanın monetarizasiya və silah yarışı siyasətinin regional sülh və təhlükəsizliyə təhdid olduğunu vurğuladı, sülh müqaviləsinin imzalanması üçün Ermənistanın Konstitusiyasında Azərbaycana qarşı olan ərazi iddialarına son qoyulmasının vacibliyini qeyd etdi və bildirdi ki, Ermənistan tərəfindən konstitusion əsasda Azərbaycan iddiaları olmamalıdır. Söhbət zamanı regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Görüşdə Amerika Birləşmiş Ştatları Konqresi ilə Azərbaycan arasında dialoqun gücləndirilməsi, qarşılıqlı səfərlərin artırılması məsələləri müzakirə olundu. Azərbaycanla ABŞ arasında əməkdaşlığın və tərəfdaşlığın müxtəlif sahələrdə inkişaf perspektivlərinə toxunuldu [Prezident.az, 2024b].

Prezident İlham Əliyev 2024-cü il noyabr ayının 17-də Beynəlxalq Kanoe Federasiyasının prezidenti Tomas Konietsko, Beynəlxalq Avarçəkmə Federasiyasının prezidenti Jan Kristof Roland və Beynəlxalq Draqon Qayıqları Federasiyasının prezidenti Klaudio Şermi ilə görüşdü. Beynəlxalq Kanoe Federasiyasının prezidenti Bakının dünyanın ən gözəl şəhərlərindən biri olduğunu dedi və Bakıda bu gün COP29-la əlaqədar keçiriləcək avarçəkmə yürüşünün yüksək səviyyədə təşkil edildiyini və bunun üçün hər cür şəraitin yaradıldığını qeyd etdi. COP29-un əhəmiyyətinə toxunan Prezident İlham Əliyev Qonaqların bu tədbirdə iştiraklarına görə minnətdarlığını bildirdi. Bu tədbirin ən yüksək səviyyədə təşkil edildiyini deyən Tomas Konietsko, burada iştirakçıların rahatlığı üçün hər cür şəraitin yaradıldığını vurğuladı. Prezident İlham Əliyev COP29-a hazırlıq vaxtının az olmasına baxmayaraq, bütün təşkilati işlərin qısa zamanda həyata keçirildiyini qeyd etdi. Qonaq Qarabağa, Suqovuşana səfər etdiklərini məmnunluqla deyərək, orada görülən bərpa, yenidənqurma işlərinin, idmanın inkişafının, o cümlədən avarçəkmə üçün yaradılan şəraitin çox böyük təəssürat bağışladığını dedi. O, ölkəmizdə kanoe idman növü üçün də yaxşı şəraitin yaradıldığını vurğuladı və buna görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Azərbaycanın idmanın, o cümlədən avarçəkmə idman növünün inkişafında böyük rol oynadığını deyən Tomas Konietsko bunun da ətraf mühitin qorunması işinə töhfə verdiyini bildirdi [Prezident.az. 2024c].

Prezident İlham Əliyev 2024-cü il noyabr ayının 17-də Kuala Lumpur şəhərinin meri, BMT-nin Məskunlaşma Proqramının sabiq icraçı direktoru xanım Maimuna Mohd Şərif ilə görüşdü. [Prezident.az., 2024ç] Maimuna

Mohd Şərif Prezident İlham Əliyevə COP29-da yerli icmalar statusunda Kuala Lumpur şəhərinin meri kimi çıxış etməsinə yaradılan imkana və COP29-da Azərbaycanın Sədrliyi yanında yaradılmış Məşvərət Şurasına daxil edilməsinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Söhbət zamanı Maimuna Mohd Şərifin rəhbəri olduğu dövrdə Azərbaycanla bu qurum arasında əməkdaşlığın inkişafına verdiyi töhfə qeyd olundu. Ölkəmizin 2026-cı ildə BMT nin ən vacib tədbirlərindən biri olan Dünya Urban Forumuna ev sahibliyi edəcəyi məmnunluqla vurğulandı və buna hazırlıq prosesinin artıq başlandığı bildirildi. Görüşdə Bakının və ölkəmizin digər şəhərlərinin inkişafı kontekstində Azərbaycanın Urban planlaşdırma və urbanizasiya sahəsində nailiyyətləri xüsusilə qeyd olundu. İşğaldan azad edilmiş ərazilərimizdə şəhərlərin və kəndlərin qurulması prosesindəki təcrübəsi vurğulandı. Söhbət zamanı Bakı və Kuala Lumpur arasında əməkdaşlığın inkişafı ilə bağlı təcrübə mübadiləsinin aparılması məsələsinə toxunuldu. Bakının və Kuala Lumpurun qardaşlaşmış şəhərlər kimi əlaqələrinin qurulması istiqamətində fikir mübadiləsi aparıldı. Bütövlükdə, Azərbaycanla Malayziya arasında dost münasibətlərinin olduğu ölkələrimizin beynəlxalq təşkilatlarda bir birini daim dəstəklədikləri qeyd edildi. Şəhərimizin ruhuna uyğun olaraq iqtisadiyyat, ticarət, mədəniyyət, turizm və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev 2024-cü il noyabr ayının 17-də ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki ilə görüşdü. Dövlətimizin başçısı COP29-da iştirak etdiyinə görə ICESCO-nun Baş direktoruna minnətdarlığını bildirdi. Salim bin Məhəmməd əl-Maliki öz növbəsində COP29-un yüksək səviyyədə təşkilinə görə təşəkkürünü ifadə etdi. Söhbət zamanı Azərbaycanla ICESCO arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu. Bu xüsusda Prezident İlham Əliyev Heydər Əliyev Fondunun vitse prezidenti Leyla Əliyevanın ICESCO-nun Mərakeşdə yerləşən qərargahında olmasının və Salim bin Məhəmməd əl-Maliki ilə görüşünün onda çox xoş təəssüratlar doğurduğunu vurğulayaraq, orada göstərilən qonaqpərvərliyə görə ICESCO-nun Baş Direktoruna minnətdarlığını bildirdi. Görüşdə əlaqələrimizin daha da əminliklə inkişaf edildiyi ifadə olundu, əməkdaşlığımızın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı. [Prezident.az., 2024d]

Beləliklə, COP29 tədbiri Azərbaycanda yüksək səviyyədə keçirildi. Dünya noyabr ayının 17-dən Bakı platformasından yararlanmaqla qlobal iqlim problemlərinin yaratdığı müasir təhdidləri müzakirə etdi, bəşəriyyətə konkret mesajlar ünvanladı və hər kəsi bu birliyə, həmrəyliyə çağırdı. COP29 yüksək səviyyədə Azərbaycanın növbəti dəfə peşəkar təşkilatçılıq bacarığı ilə baş tutdu. COP29 konkret nəticələr verib, iqlim problemləri ilə mübarizənin mühüm, ən əsası praktik həll yollarını ortaya qoydu.

## 3.COP29: Xəzər dənizində ilk külək elektrik stansiyasının yaradılmasına qərar verildi

COP29 çərçivəsində Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR), Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" və Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətləri arasında Xəzər dənizinin Azərbaycan sektorunda 3,5 giqavatlıq külək elektrik enerjisi istehsalı üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıdı.

Azərbaycan Energetika Nazirliyi vurğulayıb ki, 2030-cu ilə qədər ölkənin ümumi enerji balansında bərpaolunan enerjinin (günəş, külək, dalğa, su) payının 30 faizə çatdırılması hədəf kimi götürülüb: "Hazırda bərpaolunan enerji mənbələri üzrə elektrik stansiyalarının gücü 1 milyard 687.8 milyon kilovat-saatdır. Bu da ümumi gücün 20.3 faizini təşkil edir" [Energetika Nazirliyi, 2024]. Beləliklə, proses göstərir ki, Azərbaycanın "yaşıl enerji"yə keçid prosesi sürətli xarakter almağa başlayıb. Bu, həm də COP29-a ev sahibliyi edən ölkə kimi Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizədə verdiyi böyük töhfələrdən biridir. Ümumiyyətlə, Azərbaycanın enerji strategiyasında bərpaolunan və "yaşıl enerji" əsasında istehsal edilən elektrik ixracı ölkənin əsas prioritetlərindəndir. Ölkəmizin bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135, dənizdə 157 qiqavatdır. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 qiqavat, o cümlədən külək enerjisi üzrə 3 min meqavat, günəş enerjisi üzrə 23 min meqavat, bioenerji potensialı 380 meqavat, dağ çaylarının potensialı 520 meqavat həcmində qiymətləndirilir.
Burada nəzərə alınması vacib məqam budur ki, işğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzur da "yaşıl enerji" zonası elan edilib. Azərbaycanın bərpaolunan enerji istehsalı siyasətinin strateji əsası dövlət tərəfindən artıq müəyyənləşdirilib. Təsadüfi deyil ki, Prezident İlham Əliyev tərəfindən təsdiqlənən "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri" sənədində 5 milli prioritetdən biri olan təmiz ətraf mühit və "yaşıl artım" əsas hədəflərdəndir. Bu gün Azərbaycanın reallaşdırmaqda olduğu layihələr onu deməyə əsas verir ki, yaxın zamanlarda ölkəmiz təkcə neft-qaz ixracatçısı kimi deyil, həm də Avropaya yaşıl enerji ixrac edən bir dövlət kimi öz missiyasını yerinə yetirəcək. Bu istiqamətlərdə işlərə start verilib və artıq Azərbaycan Gürcüstan, Macarıstan və Rumıniya ilə Qara dənizin dibi ilə sualtı kabel vasitəsilə yaşıl enerjinin Avropaya ixracı layihəsini icra etməkdədir. COP29-un Azərbaycanda keçirilməsi də bu prosesin davamıdır və ölkəmizin yaşıl enerjiyə keçidində, həmçinin bərpaolunan enerji mənbələrinin inkişafı ilə bağlı qarşısına qoyduğu məqsədlərə çatmasında böyük rol oynayacaq [Quliyev, 2024a].

Bir nüans xüsusi qeyd edilməlidir ki, Azərbaycanın adının neftlə sıx bağlı olmasına baxmayaraq, ölkəmiz regionda "yaşıl enerji"yə keçiddə lider

mövqedədir. Bu da o deməkdir ki, regionda ölkəmiz iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə böyük töhfə verir. Dünya ölkələri qarşısında duran çağırışlar və dünya energetika balansında gözlənilən struktur dəyişiklikləri region üçün dayanıqlı və xalis energetika gücünün artırılması, “yeni enerji” marşrutlarının müəyyənləşdirilməsi kimi vəzifələr irəli sürüb. Buna əsaslanaraq, Azərbaycan qlobal və regional enerji təhlükəsizliyinin təminatında mühüm aktorlardan biri kimi xüsusilə bərpaolunan enerjinin inkişafı sahəsində davamlı layihələr həyata keçirir, qonşu ölkələrin enerji sistemlərinə sıx inteqrasiya edir. Bu da ölkəyə əlavə üstünlüklər qazandırır. Hazırda günəş və külək enerjisindən səmərəli istifadə Azərbaycanın “yaşıl enerji” konsepsiyasının əsas elementlərindəndir. Xüsusilə, nəzərə alsaq ki, ölkəmizin günəş və külək potensialı böyükdür, istehsal olunan yaşıl enerjinin ixracı üçün zəruri infrastrukturun olması əsas şərtlərdəndir. Bu sahədə Azərbaycan üçün böyük bir şans var. Bununla yanaşı, bərpa olunan enerji mənbələrindən istifadənin artırılması üçün “Masdar”, “ACWA Power”, “China Gezhouba Group Overseas Investment”, “Total Energies”, “Nobel Energy Management”, BP kimi şirkətlərlə əməkdaşlıq edilir. Bu “yaşıl enerji” layihələrinin həyata keçirilməsinin ölkəmiz üçün siyasi, iqtisadi, sosial və ekoloji faydaları var. Onu da qeyd edək ki, hazırda dünya dövlətləri Paris Sazişinin tələblərini yerinə yetirərək qlobal istiləşməni 1.5 dərəcəyədək məhdudlaşdırmaq üçün bütün mövcud səyləri səfərbər edirlər. Bu razılaşmanın öhdəliyini yerinə yetirməyin əsas yolu enerji istehsalında alternativ və bərpa olunan enerji resurslarından istifadə edərək, qazıntı yanacağı yandırmağı azaltmaq və “yaşıl enerji”yə keçməkdir. Bu istiqamətdə Azərbaycan artıq dünya miqyasında uğurlu nümunə yaradan ölkələrdən biri qismində qəbul olunur. Azərbaycan 2030-cu ilədək bərpaolunan enerji həcminin üç dəfə və enerji səmərəliliyinin iki dəfə artırılması ilə bağlı qlobal təşəbbüsə qoşulub. Ölkənin əlverişli coğrafi mövqeyi və iqlim şəraiti yaşıl enerji istehsalı üçün geniş imkanlar yaradır. Bu fonda külək, günəş, dağ çayları, biokütlə və geotermal su mənbələri hesabına bərpaolunan enerji istehsalı sahəsində böyük uğurlar əldə edilir.

**4.COP29 çərçivəsində: Xəzərdə külək enerjisinin istehsalına dair bəyannamə imzalandı**

COP29-un ikinci həftəsində Xəzər dənizinin ekoloji problemləri və çirklənmə mənbələri də geniş müzakirə predmeti olub. Burada diqqətə çəkilib ki, ekoloji problemin səbəbləri dənizdə karbohidrogen ehtiyatlarının axtarışı, hasilatı və nəqli zamanı ekoloji tələblərin gözlənilməməsi, sənaye tullantıları, çay suları ilə dənizə müxtəlif çirkləndirici maddələrin gətirilməsi və bu kimi digər amillərlə bağlıdır.

Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Roland Prays qeyd etdi ki, Xəzər dənizinin səviyyəsinin azalması sahilyanı ölkələrin iqtisadiyyatına mənfi təsir göstərir. Onun sözlərinə görə, Xəzər dənizində su səviyyəsinin davamlı azalması təkcə ekoloji problem deyil, həm də iqtisadi inkişafın məhdudlaşdırılmasıdır: "Su səviyyəsinin azalması artıq sahilyanı ölkələrin iqtisadiyyatına təsir göstərir. Bəzi gəmilər tutumunun yalnız 50 %-i qədər yüklənə bilər. Quraşdırılmış avadanlıqların və tikilmiş infrastrukturun bir hissəsi artıq istifadəyə yararsız hesab edilir. Bu səbəbdən Dünya Bankının tədqiqatı, eyni zamanda mövcud şəraitdə limanların və gəmiçiliyin dayanıqlılığını artırmaq üçün həyata keçirilə biləcək tədbirlərin müəyyənləşdirilməsinə yönəlib". Prays əlavə edib ki, region üçün əsas məqam Xəzər dənizi ölkələrinə bu su hövzəsindəki su səviyyələrinin yumşaldılması və uyğunlaşdırılması üçün aralıq tədbirlər görməyə imkan verəcək monitorinq mexanizminin yaradılmasıdır. Onun sözlərinə görə, Dünya Bankı və BMT-nin Ətraf Mühit Proqramı hazırda iştirakçı ölkələrlə Xəzər dənizinin biomüxtəlifliyinin qorunması ilə bağlı iştirakçı ölkələrin potensialını gücləndirmək olan yeni layihənin hazırlanmasında əməkdaşlıq edir: “2025-ci il iyulun 20-də təsdiqlənməsi gözlənilən Xəzər dənizi üzrə layihənin icmalı ölkələrə biomüxtəlifliyin qorunmasının yaxşılaşdırılmasında və s. kömək etməyə yönəlib [Report.az., 2024] Bu, üç iştirakçı ölkənin - Azərbaycan, Qazaxıstan və Türkmənistanın potensialının gücləndirilməsi yolu ilə əldə ediləcək". Prays vurğulayıb ki, layihə ölkələrin Tehran Konvensiyası və onunla bağlı protokollar üzrə öhdəliklərinin yerinə yetirilməsi üzrə cari səylərini tamamlayır: “Milli səviyyədə layihə üç ölkəyə çirklənmənin monitorinqi üçün yeni protokolların hazırlanmasında və sairə dəstək göstərəcək”. UNEP-in icraçı direktoru İnger Andersen tərəfindən təqdim olunan, Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə UNEP-in birgə əməkdaşlığı əsasında hazırlanan “Xəzər dənizi səviyyəsinin tərəddüdləri və iqlim dəyişmələri” adlı hesabatda isə bir daha dənizdə iqlim dəyişmələri və antropogen təsirlər fonunda ciddi problemlərin yarandığını göstərib [AZƏRTAC, 2024].

Xüsusi qeyd edilib ki, qarşıdakı onilliklərdə Xəzərdə suyun səviyyəsinin enməsi ehtimalının qarşısını almaq üçün təxirəsalınmaz tədbirlərin görülməsi vacibdir. Əks halda dənizdəki ekosistemlərin məhvi, sahilyanı ərazilərdə əhalinin yaşayış yerlərini tərk etməsi, Xəzər sahillərindəki ölkələrin iqtisadiyyatlarının təhdid altına düşməsi qaçılmaz olacaq. Bütün bunlar onun təsdiqidir ki, Xəzərdəki böhran təkcə ekoloji deyil, həm də humanitar xarakter daşıyır, dolanışıq və ərzaq təhlükəsizliyinə təsir edərək milyonlarla insanın gündəlik həyatına ciddi təsir göstərmək iqtidarındadır. İndi əsas məsələ bu fəlakətlərin önlənilməsinə nail olmaqdır [Quliyev, 2024b].

COP29 çərçivəsində Xəzər dənizinin qarşılaşdığı ciddi ekoloji və humanitar böhranlar, o cümlədən iqlim dəyişikliyinin mənfi təsirləri, biomüxtəlifliyin itirilməsi, torpaq deqradasiyası və çirklənmənin nəticələri ətraflı müzakirə olundu. Balıqçılığın azalması, suyun duzluluğunun artması və Xəzər suitisi kimi unikal növlərin təhlükə altında olması da vurğulandı.

COP29 çərçivəsində olan iclasın sonunda “Xəzəryanı dövlətlərin nazirlərinin və yüksəkvəzifəli şəxslərinin Xəzər dənizi səviyyəsinin azalması ilə bağlı əməkdaşlığın gücləndirilməsi haqqında Bəyannamə” qəbul edildi.

Sözügedən kontekstdə sahilyanı ölkələrin dənizin ekoloji durumu ilə bağlı koordinasiyalı fəaliyyəti Xəzərin üzləşdiyi problemlərin həllində şübhəsiz ki, mühüm rol oynayacaq. Bu, COP29-un Xəzərə mühüm töhfəsi kimi də qiymətləndirilə bilər. Əldə olunan razılaşmalar ilk növbədə iqlim dəyişikliyinin Xəzər dənizinin sahil zonasına və onun infrastrukturuna təsirini azaltmaq üçün birgə strategiya və uyğunlaşma planının hazırlanmasında həlledici əhəmiyyət daşıyacaq. UNEP-in icraçı direktoru İnger Andersen bu xüsusda bildirir: “*Beş Xəzəryanı ölkə COP29 çərçivəsində Xəzərin səviyyəsinin azalması ilə bağlı Bəyannamə qəbul etdi. Bu, Azərbaycanın pavilyonunda baş verən tarixi hadisədir. Azərbaycan Tehran Konvensiyasını imzalayan beş ölkəni də bir araya gətirməyə nail olub. Bütün tərəflər razılığa gəlib ki, onlar birgə əməkdaşlıq edərək iqlim dəyişikliyinin yaratdığı təzyiqləri aradan qaldırmaq üzrə çalışacaq. Bundan əlavə isə Xəzər dənizinin bəxş etdiyi zənginliklərdən də birgə faydalanacaqlar. Biz bilməliyik ki, istiləşmə Xəzər dənizində yağıntıların azalmasına və suyun səviyyəsinin getdikcə enməsinə səbəb olacaq. Beş ölkədən olan alimlər bir araya gələrək bu məsələləri, iqlim dəyişikliyinin fəsadlarının aradan qaldırılmasını həll etməlidir*”. Beləliklə, dənizdə suyun azalmasının təsirlərinin yumşaldılmasına və yeni şəraitə uyğunlaşmasına yönəlmiş birgə strategiyaların işlənib hazırlanması üçün Xəzəryanı ölkələrin əməkdaşlığı zəruridir.

**5.Nəticə**

COP-un keçirilmə səbəbinin dünyanı iqlim dəyişikliyinə qarşı mübarizəyə sövq etmək olduğunu bilirik. COP təməldən iqlim dəyişikliyinə, onunla mübarizə və fəsadların aradan qaldırılmasına xidnət edən tədbirlərdən olsa da, COP29 özünün müxtəlif mövzuların müzakirəsi üçün əlverişli platforma olduğunu da sübut etdi. Bu istiqanətdə Prezident İlham Əliyevin ikitərəfli görüşlərini və bu görüşlərin nəticələrini misal göstərmək olar.

Prezident İlham Əliyevin ikitərəfli görüşlərində regional və beynəlxalq məsələlər, ABŞ Konqresi ilə Azərbaycan arasında dialoqun gücləndirilməsi, qarşılıqlı səfərlərin artırılması məsələləri müzakirə olundu, Azərbaycan ilə ABŞ arasında əməkdaşlığın və tərəfdaşlığın müxtəlif sahələrdə inkişaf perspektivlərinə toxunuldu.

Elə Beynəlxalq Kanoe Federasiyasının prezidenti Tomas Konietsko da Azərbaycanın idmanın, o cümlədən idmanın avarçəkmə növünün inkişafında böyük rol oynadığını və bu qayğının özünün ətraf mühitin qorunmasına töhfə verəcəyini vurğuladı və buna görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Həmçinin Bakının və Kuala-Lumpurun qardaşlaşmış şəhərlər kimi əlaqələrinin qurulması istiqamətində fikir mübadiləsi aparıldı. Dünya Məskunlaşma Gününün də Azərbaycanda qeyd ediləcəyinin müsbət addım olduğu vurğulandı. Azərbaycan ilə ICESCO arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi.

Yaşıl enetjinin, bərpa olunan enerjinin əldə edilməsi üçün ölkəmizin əlverişli coğrafi mövqeyi və iqlim şəraiti olduğuna, bu fonda külək, günəş, dağ çayları, biokütlə və geotermal su mənbələri hesabına bərpaolunan enerji istehsalı sahəsində böyük uğurlar əldə edildiyinə diqqət yetirildi. Azərbaycanın yaşıl enetjini Avropaya ixrac edən bir dövlət kimi öz missiyasını yerinə yetirməsi üçün bu istiqamətlərdə işlərə start verildiyi və artıq ölkəmizin Gürcüstan, Macarıstan və Rumıniya ilə Qara dənizin dibi ilə sualtı kabel vasitəsilə yaşıl enerjinin Avropaya ixracı layihəsini icra etməsi məsələlərinə də toxunuldu.

COP29 çərçivəsində həm də regionun ən mühüm problemlərindən sayılan Xəzər dənizinin ekoloji durumu ilə bağlı məsələyə də xüsusi diqqət yetirildi. Azərbaycan milli pavilyonunda “İqlim dəyişikliyi fonunda Xəzər dənizinin səviyyəsinin azalması” mövzusunda Xəzəryanı ölkələrin rəsmilərinin toplantısı keçirilərək, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və “Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında” Çərçivə Konvensiyası Katibliyinin birgə təşkilatçılığı ilə təşkil olunan toplantıda Xəzəryanı ölkələrin - Azərbaycanın, İranın, Qazaxıstanın, Rusiyanın və Türkmənistanın nümayəndələri, rəsmiləri, BMT-nin Ətraf Mühit Proqramının (UNEP) icraçı direktoru və digər beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı nəticəsində, “Xəzəryanı dövlətlərin nazirlərinin və yüksəkvəzifəli şəxslərinin Xəzər dənizi səviyyəsinin azalması ilə bağlı əməkdaşlığın gücləndirilməsi haqqında Bəyannamə” qəbul edildi.

COP29-un və görüşlərin yüksək səviyyədə təşkil edilməsi, bütün məqamlara həssaslıqla yanaşma Azərbaycanın bu tədbirə və ümumilikdə iqlim dəyişikliyi ilə mübarizə məsələsinə necə məsuliyyətlə yanaşmasının bariz nümunəsi oldu. Bu tədbirin ölkəmizdə keçirilməsi Azərbaycanın beynəlxalq arenada mühüm rol oynayan aktorlardan biri olduğunu sübuta yetirdi. COP29 çərçivəsində Azərbaycanı da yaxından maraqlandıran və həllinə böyük məsuliyyətlə yanaşdığımız qlobal problemlərin yaratdığı müasir tədbirlətin müzakrəsi baş tutdu.

## ƏDƏBİYYAT

1. Abdalov, N. (2024, Dekabr 18). "Yaşıl enerji" potensialı ilə gələcəyə baxış. *Respublika qəzeti*, (279), s.10. [Online]. Available: https://www.elibrary.az/docs/qazet/qzt2024_8316.pdf
2. *Azərbaycan Respublikası Energetika Nazirliyi.* (2024, Noyabr 17). COP29-da bərpa olunan enerji və enerji səmərəliliyinə investisiyaların artırılmasına dair Nazirlər Dialoqu keçirilib. [Online]. Available: https://minenergy.gov.az/az/xeberler-arxivi/00393
3. *AZƏRTAC.* (2024, Noyabr 18). COP29-da Xəzər dənizi səviyyəsinin azalması ilə bağlı əməkdaşlığın gücləndirilməsi haqqında Bəyannamə qəbul olunub. [Online]. Available: https://azertag.az/xeber/cop29_da_xezer_denizi_seviyyesinin_azalmasi_ile_bagli_emekdasligin_guclendirilmesi_haqqinda_beyanname_qebul_olunub_yenilenib_video-3287660
4. Quliyev, R. (2024, Noyabr 16a). *COP29-un növbəti böyük faydası - Xəzərdə ilk külək stansiyasına qərar verildi...* [Online]. Available: https://www.baki-xeber.news/iqtisadiyyat/221023.html
5. Quliyev, R. (2024, Noyabr 21b). COP29 Xəzər dənizi ilə bağlı mühüm sənəd qəbul etdi. *Bakı xəbəri qəzeti*, (210), s.6. [Online]. Available: https://www.elibrary.az/docs/qazet/qzt2024_7571.pdf
6. *Prezident.az.* (2024, Noyabr 12a). Bakıda COP29-un Liderlər Sammitinin açılış mərasimi keçirilib. [Online]. Available: https://president.az/az/articles/view/67281
7. *Prezident.az.* (2024, Noyabr 17b). İlham Əliyev ABŞ Nümayəndələr Palatası üzvünün başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. [Online]. Available: https://president.az/az/articles/view/67345
8. *Prezident.az.* (2024, Noyabr 17c). İlham Əliyev Beynəlxalq Kanoe, Avarçəkmə və Draqon Qayıqları federasiyalarının prezidentləri ilə görüşüb. [Online]. Available: https://president.az/az/articles/view/67346
9. *Prezident.az.* (2024, Noyabr 17d). İlham Əliyev Kuala Lumpur şəhərinin meri ilə görüşüb. [Online]. Available: https://president.az/az/articles/view/67347
10. *Prezident.az. (*2024, Noyabr 17e). İlham Əliyev ICESCO-nun Baş direktoru ilə görüşüb. [Online]. Available: https://president.az/az/articles/view/67348
11. *Report.az.* (2024, Noyabr 18). DB-nin regional direktoru: Xəzərin səviyyəsinin azalması sahilyanı ölkələrin iqtisadiyyatına mənfi təsir göstərir. [Online]. Available: https://report.az/cop29/roland-prays-xezer-denizinin-seviyyesinin-azalmasi-sahilyani-olkelerin-iqtisadiyyatina-menfi-tesir-gosterir/

**12.** Zeynalova, Ş. (2024, İyun 29). COP: iqlim dəyişmələri ilə mübarizədə beynəlxalq platforma. *Respublika-news.az*. [Online]. Available: https://respublika-news.az/az/news/cop-iqlim-deyismeleri-ile-mubarizede-beynelxalq-platforma

## REFERENCES

**1.** Abdalov, N. (2024, December 18). A vision of the future with the potential of "Green energy". *Republic newspaper*, (279), p.10. [Online]. Available: https://www.elibrary.az/docs/qazet/qzt2024_8316.pdf (in Azerbaijani)
**2.** *Ministry of Energy of the Republic of Azerbaijan.* (2024, November 17). A Ministerial dialogue on increasing investments in renewable energy and energy efficiency was held at COP29. [Online]. Available: https://minenergy.gov.az/az/xeberler-arxivi/00393 (in Azerbaijani)
**3.** *AZERTAC.* (2024, November 18). At COP29, the Declaration on the strengthening of cooperation on the reduction of the level of the Caspian Sea was adopted. [Online]. Available: https://azertag.az/xeber/cop29_da_xezer_denizi_seviyyesinin_azalmasi_ile_bagli_emekdasligin_guclendirilmesi_haqqinda_beyanname_qebul_olunub_yenilenib_video-3287660 (in Azerbaijani)
**4.** Guliyev, R. (2024, November 16a). *The next big benefit of COP29 - the first wind farm on the Caspian was decided...* [Online]. Available: https://www.baki-xeber.news/iqtisadiyyat/221023.html (in Azerbaijani)
**5.** Guliyev, R. (2024, November 21b). COP29 adopted an important document about the Caspian Sea. *Bakı news newspaper*, (210), p.6. [Online]. Available: https://www.elibrary.az/docs/qazet/qzt2024_7571.pdf (in Azerbaijani)
**6.** *Prezident.az.* (2024, November 12a). The opening ceremony of the COP29 Leaders' Summit was held in Baku. [Online]. Available: https://president.az/az/articles/view/67281 (in Azerbaijani)
**7.** *Prezident.az.* (2024, November 17b). Ilham Aliyev met with a delegation led by a member of the US House of Representatives. [Online]. Available: https://president.az/az/articles/view/67345 (in Azerbaijani)
**8.** *Prezident.az.* (2024, November 17c). Ilham Aliyev met with the presidents of the International Canoe, Rowing and Dragon Boat Federations. [Online]. Available: https://president.az/az/articles/view/67346 (in Azerbaijani)
**9.** *Prezident.az.* (2024, November 17d). Ilham Aliyev met with the mayor of Kuala Lumpur. [Online]. Available: https://president.az/az/articles/view/67347 (in Azerbaijani)

**10.** *Prezident.az.* (2024, November 17e). Ilham Aliyev met with the General Director of ICESCO. [Online]. Available: https://president.az/az/articles/view/67348 (in Azerbaijani)
**11.** *Report.az.* (2024, November 18). WB Regional Director: The decrease in the level of the Caspian Sea has a negative impact on the economy of the coastal countries. [Online]. Available: https://report.az/cop29/roland-prays-xezer-denizinin-seviyyesinin-azalmasi-sahilyani-olkelerin-iqtisadiyyatina-menfi-tesir-gosterir/ (in Azerbaijani)
**12.** Zeynalova, Sh. (2024, June 29). COP: International platform to combat climate change. *Respublika-news.az*. [Online]. Available: https://respublika-news.az/az/news/cop-iqlim-deyismeleri-ile-mubarizede-beynelxalq-platforma (in Azerbaijani)